# *TƏLİM PROSESİNDƏ DİFERENSİALLAŞMA*
# *ДИФФЕРЕНЦИАЦИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ*
# *DIFFERENTIATION IN THE TEACHİNG PROCESS*

*UOT 37.0*

***Gülnarə Həzi qızı Paşayeva***
*Qarabağ Universitetinin ingilis dili müəllimi*
*https://orcid.org/0009-0005-7095-6395*
*E-mail: Gulnara.pashayeva@karabakh.edu.az*
https://doi.org/10.69682/arti.2025.92(1).27-31

## VI-IX SİNİFLƏRDƏ DİFERENSİALLAŞMANIN TƏLİM PROSESİNƏ TƏSİRİ

***Гюльнара Гязи кызы Пашаева***
*преподаватель английского языка в Карабахском Университете*

## ВЛИЯНИЕ ДИФФЕРЕНЦИАЦИИ НА ОБРАЗОВАТЕЛЬНЫЙ ПРОЦЕСС В VI-IX КЛАССАХ

***Gulnara Hazi Pashayeva***
*English teacher at Karabakh University*

## THE IMPACT OF DIFFERENTIATION ON THE LEARNING PROCESS IN GRADES VI-IX

**Xülasə.** Bu məqalədə təlimin diferensiallaşdırılması anlayışı və onun tədris prosesinin optimallaşdırılmasında rolu araşdırılır. Diferensiallaşdırılmış təlim şagirdlərin fərdi xüsusiyyətlərini, bilik və bacarıq səviyyələrini, öyrənmə tərzlərini nəzərə alaraq onların inkişafına yönəlmiş strategiyaların tətbiqini nəzərdə tutur. Məqalədə bu yanaşmanın pedaqoji və psixoloji əsasları, tətbiq prinsipləri və metodları təhlil edilir. Təlimin diferensiallaşdırılması şagirdlərin təlimə marağını artırmaq, onların öyrənmə potensialını tam reallaşdırmaq və tədris prosesini səmərəliləşdirmək baxımından mühüm vasitə kimi qiymətləndirilir. Bundan əlavə, müəllimlərin bu yanaşmanı uğurla tətbiq edə bilməsi üçün tələb olunan şərtlər və qarşılaşdıqları çətinliklər də müzakirə olunur. Məqalədə təqdim olunan təhlil və tövsiyələr təhsilin keyfiyyətinin artırılması və fərdi yanaşmanın gücləndirilməsi istiqamətində faydalı ola bilər.
***Açar sözlər:*** *təlim, diferensiallaşma,optimallaşdırma, təhsil, şagird, müəllim*

**Аннотация.** В статье рассматривается концепция дифференциации обучения и ее роль в оптимизации процесса обучения. Дифференцированное обучение предполагает применение стратегий, направленных на развитие учащихся с учетом их индивидуальных особенностей, уровня знаний и навыков, а также стилей обучения. В статье анализируются педагогические и психологические основы, принципы применения и методы данного подхода. Дифференциация обучения считается важным инструментом повышения интереса учащихся к обучению, полной реализации их учебного потенциала и повышения эффективности процесса обучения. Кроме того, обсуждаются условия, необходимые учителям для успешной реализации этого подхода, и проблемы, с которыми они сталкиваются. Представленный в статье анализ и рекомендации могут быть полезны для повышения качества образования и усиления индивидуального подхода.
***Ключевые слова:*** *обучение, дифференциация, оптимизация, образование, студент, преподаватель*

**Abstract.** This article examines the concept of differentiation of learning and its role in optimizing the learning process. Differentiated learning involves the application of strategies aimed at the development of students, taking into account their individual characteristics, knowledge and skill levels, and learning styles. The article analyzes the pedagogical and psychological foundations, application principles, and

methods of this approach. Differentiation of learning is considered an important tool in terms of increasing students' interest in learning, fully realizing their learning potential, and making the teaching process more effective. In addition, the conditions required for teachers to successfully apply this approach and the difficulties they face are also discussed. The analysis and recommendations presented in the article may be useful in improving the quality of education and strengthening the individual approach.

***Keywords:*** *learning, differentiation, optimization, education, student, teacher*

Təhsil sistemində şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanın tətbiqi son illərdə geniş vüsət almışdır. Bu yanaşmalardan biri də diferensial təlimdir. Diferensial təlim, müxtəlif bacarıq, bilik səviyyəsi, öyrənmə üslubu və maraqları olan şagirdlərə uyğunlaşdırılmış tədris metodlarının tətbiqini nəzərdə tutur.

Müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri səmərəli təlim strategiyalarını işləyib hazırlamaq və tətbiq etməkdir. Bu baxımdan, təlimin diferensiallaşdırılması onun optimallaşdırılmasının əsas vasitələrindən biri kimi çıxış edir. Diferensial təlim tələbələrin fərdi ehtiyaclarını, bacarıqlarını və maraqlarını nəzərə alaraq onların potensialını maksimum əlverişli şəraitdə 28nikas etdirməyə imkan yaradan yanaşmadır.

Diferensial təlim – müəllimin eyni dərs çərçivəsində şagirdlərin fərdi ehtiyaclarına uyğun olaraq müxtəlif metod, üsul və materiallardan istifadə etməsidir. Bu yanaşma, tədrisin fərdiləşdirilməsi və şagirdlərin potensialının maksimum inkişaf etdirilməsi məqsədini daşıyır.

Diferensial təlimin əsas komponentləri seçim imkanı, çeviklik, müntəzəm formativ qiymətləndirmə və yaradıcılıqdır. Toplanan məlumatlardan düzgün istifadə edərək dörd əsas istiqamətdə diferensiallaşdırmanı həyata keçirmək mümkündür:

- məzmun;
- proses;
- nəticə;
- təlim mühiti (7, s. 81).

Məzmun dedikdə, şagirdlərin mənimsəməli olduğu bilik və bacarıqlar, həmçinin bu bilik və bacarıqları əldə etmək üçün istifadə olunan resurslar və metodlar anlaşılır.

Məzmunun diferensiallaşdırılması, şagirdlərin mövcud bilik səviyyəsinə uyğun fəaliyyətlərin təşkili və çalışmaların çətinlik dərəcəsinə görə tənzimlənməsi ilə həyata keçirilir. Bu zaman dərsin təlim nəticələrini dəyişdirmək və ya bəzi şagirdlər üçün gözləntiləri azaltmaq əvəzinə, tapşırıqların bütün şagirdlər üçün əlçatan olması təmin edilməlidir. Hər bir tapşırığın dərsin məqsədinə uyğun olması əsas şərtdir.

Diferensial təlim aşağıdakı əsas prinsiplərə əsaslanır:

1. Fərdilik prinsipi – Hər bir şagirdin öyrənmə potensialı və tərzi nəzərə alınmalıdır;
2. Fərqli tapşırıqların verilməsi – Şagirdlərin səviyyəsinə uyğun tapşırıqlar tərtib olunmalıdır;
3. Fərqli resurslardan istifadə – Vizual, audio, kinestetik və digər resurslarla dərslər zənginləşdirilməlidir;
4. Fərqli qiymətləndirmə üsulları – Şagirdlərin bilik və bacarıqları fərqli meyarlarla qiymətləndirilməlidir (2, s.76).

Diferensial təlimin üstünlükləri:

- Şagirdlərin motivasiyasını artırır;
- Öyrənmənin səmərəliliyini yüksəldir;
- Şagirdlərə öz potensiallarını daha yaxşı inkişaf etdirmək imkanı yaradır;
- Hər kəsin öyrənmə tempinə uyğunlaşdırılmış tədris prosesi təmin olunur.

Diferensial təlim şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanı təmin edən effektiv metodlardan biridir. Müəllimlər bu yanaşmanı tətbiq etməklə daha inklüziv və uğurlu tədris mühiti formalaşdıra bilərlər.

Bu metodun uğurlu icrası üçün müəllimlərin peşəkar inkişafı və metodoloji biliklərinin artırılması mühüm əhəmiyyət kəsb edir.

Diferensial təlimin həyata keçirilməsi üçün müəllimin ilk addımı şagirdlərin öyrənmə profillərini hazırlamaqdır. Bu profillərdə şagirdlərin fərdi qavrama üslubu, maraq dairələri, eləcə də digər məlumatları əks olunur. Bütün bunlar müəllimə şagirdyönlü diferensial təlimi planlaşdırmaqda kömək edir. Ancaq bunlar hər dərsdə bütün elementlərin tam şəkildə diferensiallaşdırılması demək deyil. Şagirdin ehtiyacını müəyyən etdikdə və ya modifikasiyanın onun daha dərin öyrənməsinə töhfə verəcəyindən əmin olduqda diferensial təlim strategiyalarını tətbiq etmək olar (5, s. 55).

Diferensial təlim haqqında düşünərkən, təlim prosesinin bütün aspektlərinin fərqləndiril-

məsi nəzərə alınmalıdır. Müəllim dərsi fərdiləşdirmək üçün aşağıdakı metodlardan istifadə edə bilər:

1. Yeni mövzunu izah edərkən həm şifahi, həm də vizual vasitələrdən yararlanır (eyni anda danışır və nümayiş etdirir).

2. Kiçik qruplarla işləyərək mövzunu yenidən izah edir (bu prosesə akademik cəhətdən daha güclü şagirdlər də qoşula bilər).

3. Oxu materialını tək bir mətn formatında deyil, bir neçə variantda təqdim edir ki, fərqli oxu bacarıqlarına malik şagirdlər də iştirak edə bilsinlər.

4. Şagirdlərin ehtiyaclarına uyğun müxtəlif köməkçi vasitələr təklif edir.

5. Öyrənilənləri ifadə etmək üçün müxtəlif yanaşmalar təqdim edir, məsələn, rollu oyunlar təşkil edir, şifahi cavab əvəzinə məktub yazmağı tövsiyə edir, həm fərdi, həm də qrup şəklində işləmək üçün şərait yaradır.

6. Müxtəlif öyrənmə tərzlərini nəzərə alaraq fərqli şərait yaradır – təkbaşına çalışmaq istəyənlər, qrupda işləməyə üstünlük verənlər və daima müəyyən bir kollektivin üzvü olanlar üçün uyğun mühit təmin edir (8, s.43).

Diferensial təlim yanaşmaları, həm adi, həm də xüsusi təhsil ehtiyacı olan şagirdlərin öyrənmə prosesini daha səmərəli və təsirli etmək üçün ən müasir və effektiv metodlardan biri hesab edilir.

Diferensiallaşdırılmış təlim, müxtəlif öyrənmə üslublarına və düşüncə tərzlərinə malik olan şagirdlərə vacib olan bilik və bacarıqları öyrətmək və mənimsətmək üçün istifadə edilən tədris strategiyasıdır. Diferensial öyrənmə bir proses kimi qəbul edilməli və müəllimlər tərəfindən şagirdlər üçün ən uyğun tədris şəraitini yaratmaq məqsədilə tətbiq olunmalıdır.

Öyrənmə prosesi dörd əsas aspektdən ibarətdir:

1. Fənlərin məzmunu və əldə edilməsi gözlənilən nəticələr (standartlar);

2. Şagirdlərin mövcud bilik səviyyələri, bacarıqları, inkişaf mərhələləri və xüsusi ehtiyacları;

3. Tədris metodları, tapşırıqlar, əlavə resurslar, vizual materiallar və biliklərin möhkəmləndirilməsi üçün verilən ev tapşırıqları və praktik məşqlər;

4. Qiymətləndirmə metodları və formaları.

Diferensiallaşdırılmış təlimin həyata keçirilməsi zamanı tədris prosesinin bütün aspektlərinin fərdi yanaşmaya uyğun tənzimlənməsi vacibdir (9, s.21).

Diferensial təlimi nəzərdən keçirərkən, təlim prosesinin bütün aspektlərinin diferensiallaşdırılması vacibdir.

5-9-cu siniflərdə diferensial təlimin tətbiq nümunələrini müxtəlif fənlər üzrə təşkil etmişik. Apardığımız araşdırmaların nəticələri tədqiqatımızda yer almışdır. Onlara nəzər yetirək:

2. Azərbaycan dili fənni üzrə:

Nümunə: Müəllim sinfi üç qrup üzrə bölə bilər:

- Əsas qrup: Qrammatik qaydaları anlamaqda çətinlik çəkən şagirdlər üçün vizual və praktiki tapşırıqlar təqdim edilir.
- Orta səviyyə: Qrammatikanı mənimsəmiş, lakin yazı bacarıqlarını inkişaf etdirməyə ehtiyacı olan şagirdlərə mətn üzərində işləmə tap29nikas2929n verilir.
- İrəli səviyyə: Yüksək nəticələr göstərən şagirdlərə yaradıcı yazı və esse yazma tapşırıqları verilir.

2. Riyaziyyat fənni üzrə:

Nümunə: Müəllim eyni mövzunu fərqli çətinlik səviyyələrində izah edə bilər:

- Vizual və praktik metodlarla izah (aşağı səviyyə)
- Əlavə nümunələr və qrup işləri (orta səviyyə)
- Tədqiqat xarakterli problemlər və məntiqi suallar (yüksək səviyyə)

2. Təbiət fənləri üzrə:

Nümunə:

- Eksperimentlərə əsaslanan yanaşma – Ətraf mühitlə bağlı layihələr həyata keçirilir.
- Problemyönlü öyrənmə – Şagirdlərə açıq suallar verilərək onların araşdırma aparması təmin edilir.
- Texnologiya və multimediyadan istifadə – Video, simulyasiya və interaktiv testlər tətbiq edilir.

2. Xarici dil fənni üzrə

Nümunə: Müəllim şagirdləri üç qrupa ayıraraq fərqli yanaşmalar tətbiq edə bilər:

- Danışıq bacarıqları zəif olanlar – Qısa dialoqlar və dinləmə tapşırıqları ilə işləyirlər.
- Orta səviyyədə olanlar – Müxtəlif situasiyalar əsasında rol oyunları həyata keçirirlər.

• İrəliləmiş səviyyə – Yazılı esse və təqdimatlar hazırlayırlar.

Diferensial təlim şagirdlərin bilik səviyyəsinə uyğun yanaşmanı təmin edərək, onların inki30nikas müsbət təsir göstərir. 5-9-cu siniflərdə tətbiq edilən bu metodlar həm müəllimlərin effektiv dərs keçməsinə, həm də şagirdlərin motiva30nikas3030n artmasına kömək edir. Tədris prosesində bu üsulların tətbiqi şagirdlərin bilik və bacarıqlarını maksimum səviyyədə inkişaf etdirməyə imkan yaradır.

Kompüter dərslərində diferensial təlim metodunun tətbiq olunmasından sonra, ümumilikdə şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsi artmışdır. Diferensial təlim metodunun ən nəzərəçarpacaq təsiri şagirdlərin təlim səviyyələrinə olmuşdur (1,s.10).

Hər bir şagirdə onun səviyyəsinə uyğun tap30nikas30 verilməsi, həmin şagirdin diferensial təlimdən öncəki aşağı təlim səviyyəli qrupdan orta təlim səviyyəli keçirdi. Bundan əlavə, bilik və bacarıq səviyyəsi yüksək səviyyədə müəyyənləşdirilə bilən şagirdlərin sayı isə artdı.

Sinifdə təlim səviyyəsi çox az dəyişsə də, bu müsbət istiqamətdədir: 1-ci tapşırıq üzrə beş şagird daha yüksək səviyyəli qrupa keçdi – onlardan ikisi orta səviyyəli qrupdan yüksək səviyyəli, üçü isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

2-ci tapşırıq üzrə isə üç şagird daha yüksək səviyyəli qrupa keçdi – onlardan biri orta səviyyəli qrupdan yüksək səviyyəli, ikisi isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

Ümumilikdə, sinifdə yeni tədris materialları ilə müstəqil və ya müəllimin cüzi köməyi işləməyi bacaran şagirdlərin sayı artır. Eksperiment diferensial təlimin istifadə olunmasının məqsədyönlüyünü göstərdi.

Yuxarıda göstərilənlərdən belə nəticə çıxarmaq olur ki, 7-ci sinif informatika dərslərində müxtəlif səviyyəli tapşırıqların verilməsi yolu ilə diferensial yanaşma metodu təlim prosesinin effektivliyinin yüksəlməsinə gətirib çıxarıb.

Diferensial təlim, fərdi yanaşma prinsipinə əsaslanaraq, şagirdlərin fərqli intellektual, psixoloji və öyrənmə türlərini nəzərə alır. Bu yanaşma aşağıdakı prinsiplər üzərində qurulur:

• Məzmunun diferensiallaşdırılması – şagirdlərin bacarıq səviyyəsinə uyğun olaraq müxtəlif çətinlik səviyyəsində materialların təqdim olunması;

• Prosesin diferensiallaşdırılması – öyrətmə metodlarının şagirdlərin öyrənmə türlərinə uyğun təşkili;

• Qiymətləndirmənin diferensiallaşdırılması – şagirdlərin fərdi irəliləyişi nəzərə alaraq qiymətləndirilməsi (3, s. 89).

Diferensial təlimin tətbiqi tədrisin keyfiyyətinin artmasına təkan verir. Bu yanaşma:

• Şagirdlərin motivasiyasını artırır – Onların fərdi bacarıqlarına uyğun məzmun təqdim etməklə öyrənməyə olan maraqları nəzərdə saxlanılır;

• Effektiv öyrənmə mühiti yaradır – Şagirdlərin fərdi potensiallarının 30nikas etdirməsinə imkan yaradan şərait formalaşdırır;

• Qiymətləndirmənin ədalətliliyini artırır – Hər bir şagirdin potensialı nəzərə alınaraq dəyərləndirilmə aparılır.

Diferensial təlimin tətbiq mexanizmləri

Təlimin diferensiallaşdırılmasının tətbiqi üçün müəyyən strategiyalar işlənib hazırlanmalıdır. Bu strategiyalar aşağıdakılar ola bilər:

• Fərdi təhsil planlarının hazırlanması – Hər bir şagird ünvanlı dəstək alaraq fərdi təhsil proqramları üzərində işləyir;

• Qrup təlim metodlarının istifadəsi – Şagirdlərin bacarıq və maraqlarına uyğun olaraq kiçik qruplara ayrılması;

• Rəqəmsal resurslardan istifadə – Onlayn platformalar vasitəsilə fərdi öyrənmə imkanlarını gücləndirmək (6, s. 87)

**Problemin aktuallığı.** Təlimin diferensiallaşdırılması, təhsil prosesinin optimallaşdırılmasında mühüm rol oynayır. Şagirdlərin fərdi xüsusiyyətlərini, maraqlarını və bacarıqlarını nəzərə alaraq təşkil edilən tədris prosesi onların daha effektiv öyrənməsinə və yüksək nailiyyətlər əldə etməsinə şərait yaradır. Diferensiallaşdırılmış yanaşma sayəsində tədris materialları şagirdlərin səviyyəsinə uyğun təqdim olunur, bu da onların motivasiyasını artırır və fəal iştirakını təmin etdiyi ucun məqalə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Müəllimlərin tədris metodlarını çevik tənzimləməsinə və müxtəlif öyrənmə tərzlərinə uyğun dərs təşkil etməsinə imkan verir. Nəticədə, təlim prosesi daha səmərəli və məqsədyönlü şəkildə qurulur, şagirdlər öz potensiallarını tam şəkildə reallaşdıra bilirlər. Beləliklə, təlimin diferensiallaşdırılması, təhsilin keyfiyyətinin artırılmasında və müasir tədris strategiyalarının tətbiqində mühüm vasitə kimi çıxış etməsi və bu barədə məlu-

matların öz əksini tapması məqalənin yeniliyi kimi dəyərləndirilə bilər.

**Problemin praktik əhəmiyyəti.** Diferensial təlim təhsil sisteminin optimallaşdırılmasında çox vacib rol oynayır. Bu yanaşma vasitəsilə şagirdlərin fərdi ehtiyacları qarşılanır, öyrənmə prosesinin effektivliyi artır və təlimin keyfiyyəti daha da yüksəldilir. Müasir təhsil sistemində bu yanaşmanın geniş tətbiqi zəruridir və bu istiqamətdə daha çox araşdırmalar aparılmalıdır.

## Ədəbiyyat:


1. Əliyev, A. (2019). Diferensial təlim və onun müasir təhsil sistemində rolu. Bakı: Təhsil Nəşriyyatı.
2. Gardner, H. (1993). Frames of Mind: The Theory of Multiple Intelligences. New York: Basic Books.
3. Leithwood, K., & Jantzi, D. (2006). Transformational School Leadership for Large-Scale Reform. International Journal of Educational Leadership, 9(2), 1-22.
5. Məmmədov, R. (2020). Diferensial təlim və onun təhsilin keyfiyyətinə təsiri. Bakı: Maarif Nəşriyyatı.
6. Qurbanov, E. (2021). Müasir pedaqogikada fərdiləşdirilmiş yanaşma prinsipləri. Bakı: Elm və Təhsil.
7. Sousa, D. A. (2017). How the Brain Learns (5th ed.). Thousand Oaks, CA: Corwin Press.
8. Stronge, J. H. (2018). Qualities of Effective Teachers (3rd ed.). Alexandria, VA: ASCD.
9. Tomlinson, C. A. (2014). The Differentiated Classroom: Responding to the Needs of All Learners (2nd ed.). Alexandria, VA: ASCD.
10. Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge, MA: Harvard University Press.


**Redaksiyaya daxil olub:** 31.01.2025